ATİB

AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ

AZERBAIJAN TURKEY BUSINESS ASSOCIATION

## *ATİB-in Vizyonu*

*Azərbaycan Türkiyə İş Adamları Birliyi Azərbaycanı regionun qabaqcıl ölkəsi kimi və dünyanın inkişaf etmiş ölkələri sırasında görür və bunun üçün, öncəliklə Azərbaycan və Türkiyə arasında, daha sonra isə Azərbaycan və digər ölkələr arasında iqtisadi, sosial və mədəni əlaqələrin inkişaf etdirilməsinin vacibliyinə inanır.*

## *ATIB Vision*

*Azerbaijan Turkey Business Association envisions Azerbaijan as a leading country of the region and on of the developed countries of the world, thus strongly believes in the necessity of developing economic, social and cultural relations first of all between Azerbaijan and Turkey, then among Azerbaijan and other countries.*

## *ATİB-in Missiyası*

*ATİB Azərbaycan iqtisadiyyatını canlandıran yeni inkişaf istiqamətində iş adamlarını bir yerdə toplayaraq, Azərbaycanın sahib olduğu iqtisadi potensialdan birlikdə istifadə etmək və bir SİNERJİ yaratmaq üçün qurulmuşdur.*

## *ATIB Mission*

*Established on a new development platform reviving Azerbaijan economy, ATIB aims to unite businessmen to jointly take advantage of the economic potential of Azerbaijan and to achieve SINERGY.*

## *ATİB-in Üzv Göstəriciləri*

*Əsasən qeyri-neft sektorunda fəaliyyət göstərən ATİB üzvləri arasında Azərbaycan və Türkiyə kapitallı şirkətlər, həmçinin iki ölkə kapitalının birgə iştirak etdiyi şirkətlər mövcuddur. Hazırda ATİB üzvü olan şirkətlərin nizamnamə kapitalı təxminən 800 milyon dollar təşkil edir. Şirkətlərdə 50 min nəfərdən çox insan çalışmaqdadır. ATİB üzvlərinin Azərbaycanın qeyri-neft sektoruna yatırdıqları investisiyalar 3 milyard dollardan çoxdur.*

## *ATIB Membership Indices*

*Operating mainly in non-oil sector ATIB members comprise of Azeri and Turkish companies, and joint ventures.*
*Presently, total authorized capital of ATIB's member companies amounts to USD 800 million. These companies employ more than 50 thousand personnel. Investments made by ATIB's members to non-oil sectors of Azerbaijani economy exceed USD 3 billion.*

### *ATİB üzvlərinin sektorlar üzrə bölgüsü*
### *ATIB Members by Sectors*



## ATİB-in Təşkilati Strukturu
## ATIB's Organizational Structure




### ATİB Rəhbərliyi
### İdarə Heyəti

**Sədr**
*Ahmet Erentok, AtaHoldinq ASC Müşahidə Şurasının sədri*
**Sədr müavini**
*Cemal Yangın, İstanbul Çarşı Import Export Ltd Prezidenti*
**Sədr müavini**
*Oruc Heydərov, AB Satndard ASC Prezidenti*
**Sədr müavini**
*Ali İhsan Genç, Turquoise MMC Təsisçisi*
**Üzv**
*Fatimə Aslan, ATTAS/Anglo-American Şirkətlər Alyansının Prezidenti*
**Üzv**
*Ali Ağan, Azercell Telecom MMM Baş direktor*
**Üzv**
*Təyyar Şükürov, NJT 2000 Prezidenti*
**Üzv**
*İhsan Fatoğlu, Fatoğlu İstehsal Azərbaycan Ltd Rəhbəri*
**Üzv**
*Rəfail Şirinov, TAIS IKF Rəhbəri*
**Üzv**
*Akyıl İmre, Saga Gəmi-Təmir-Tikinti Şirkəti Müşahidə Şurasının üzvü*
**Üzv**
*Fərhad Mehdiyev, Innovasiya Institutunun Rektoru*

**Katiblik**
**Baş katib** – *Rəşad Rəsullu*

### ATIB's Management
### Executive Board

**Chairman**
*Ahmet Erentok, Chairman of Supervisory Board, AtaHoldinq ASC*
**Deputy Chairman**
*Cemal Yangın, President, Istanbul Çarşı Import Export Ltd*
**Deputy Chairman**
*Oruc Heydarov, President, AB Standard*
**Deputy Chairman**
*Ali Ihsan Genç, Founder, Turquoise LLC*
**Member**
*Fatima Aslan, President, ATTAS / Anglo-American Companies Alliance*
**Member**
*Ali Agan, General Manager, Azercell Telecom MMM*
**Member**
*Tayyar Shukurov, President, NJT 2000*
**Member**
*Ihsan Fatoglu, Manager, Fatoglu Production Azerbaijan Ltd*
**Member**
*Rafail Shirinov, Manager, TAIS IKF*
**Member**
*Akyil Imre, Member of Supervisory Board, Saga Shipping-Repair-Construction Company*
**Member**
*Farhad Mehdiyev, Rector, Innovation Institute*

**Secretariat**
**Secretary General** – *Rashad Rasullu*

### *ATİB üzvlərinə faydalı xidmətlər*

- *Azərbaycan Respublikasının mövcud qanunları ilə bağlı hər hansı bir təklif və rəylərin müzakirəsi və müzakirə nəticəsində hazırlanan materialın Birliyin adından yazılı şəkildə müvafiq dövlət orqanlarına təklif şəklində təqdim olunması.*
- *Azərbaycan Respublikasının qanunvericiliyində əlavə və dəyişikliklər barədə elektron poçt vasitəsi ilə məlumatlandırma.*
- *ATİB media bülleteni.*
- *Azərbaycan Respublikasının rəsmi yazılı mətbuat orqanlarında çıxan tenderlərin elektron poçt vasitəsi ilə gündəlik yayımı.*
- *ATİB rüblük və illik iqtisadi hesabatları.*
- *ATİB ümumi və sektorlar üzrə iqtisadi tədqiqatları.*
- *ATİB ofisində təqdimat, seminar və treyninqlərin keçirilməsi.*
- *ATİB üzvləri haqqında məlumatların internet səhifəsində yerləşdirilməsi.*
- *ATİB-in təşkil etdiyi yeməkli toplantılarda iştirak.*
- *ATİB güzəştlərindən istifadə - discount proqramı.*
- *ATİB üzvlərinə ictimaiyyətlə əlaqələr üzrə dəstək xidməti.*

### *Useful services for ATIB members*

- *Holding discussions on proposals and assessments of the current legislation of the Republic of Azerbaijan, with further preparation and submission of final documents prepared on the basis of such discussions on the name of the Association to related state agencies*
- *Regular updates by email about amendments to the law of the Republic of Azerbaijan*
- *ATIB Media Bulletin*
- *Daily updates by email on current tenders announced by official Azerbaijani media publishing*
- *Quarterly and annual economic reports on ATIB's activities*
- *ATIB's general economic and by sector researches*
- *Trainings, presentations and seminars held in ATIB's office*
- *Placing information about ATIB's members in the Internet*
- *Opportunity to take part in a number of receptions organized by ATIB*
- *Benefits of joining ATIB's Discount Program*
- *PR support to ATIB's members*

---

### *ATİB-in təsisçisi olduğu qurumlar*

*UBCCE Qara Dəniz və Xəzər Dənizi Sahibkarlar Konfederasiyaları Birliyi*

*Regionda yaradılan ilk beynəlxalq qeyri hökumət təşkilatı olan UBCCE hazırda özündə 17 ölkədən 22 təşkilatı birləşdirir. UBCCE-nin qarşısında duran əsas məqsəd üzv ölkələrin biznes təşkilatları arasında institutlanmış əməkdaşlığın qurulması və əlaqələrin təkmilləşdirilməsi, ticarət və investisiya fəaliyyətlərini və sahibkarlıq ruhunu gucləndirməklə regionun iqtisadi və sosial inkişafına yardım etməkdən ibarətdir. ATİB hazırda UBCCE-nin regional iqtisadi inteqrasiya məsələlərindən məsul olan birinci vitse-prezidenti vəzifəsini həyata keçirməkdədir.*

***www.ubcce.org***

### *Organizations established by ATIB*

*UBCCE Union of Black Sea and Caspian Confederation of Enterprises*

*Established as the first International NGO in the region, UBCCE currently unites 22 organizations from 17 countries. The main goal of UBCCE is to contribute to economic and social growth of the region by establishing institutionalized cooperation among the business organizations of the member countries, and develop their relationship by enhancing trading and investment activities, and strengthening the entrepreneurial spirit in the region.*
*Currently ATIB is the First Vice-President and heads the Thematic Committee in charge of regional economic integration.*

***www.ubcce.org***

ATİB
AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ
AZERBAIJAN TURKEY BUSINESS ASSOCIATION

## ATAF Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondu

*Təsisçisinin ATİB olduğu təşkilatın Himayəçilik Şurasının hazırda 80 üzvü vardır və Şuranın sədri Türkiyə Respublikasının 9-cu Prezidenti Süleyman Demireldir. Təşəbbüsün əsas hədəfləri aşağıdakılardan ibarətdir:*

- *Azərbaycan və Türkiyə tarixini araşdırmaq və ortaq məsələlərin müəyyən edilməsinə çalışmaq;*
- *Ortaq məsələlərin həlli yollarını müəyyənləşdirmək və təkliflər hazırlamaq;*
- *Bölgə xalqlarının sülh və rifah şəraitində yaşamalarına, iqtisadi inteqrasiyaya mane olan məsələlərin həllinə və bölgənin iqtisadi rifahının yüksəldilməsinə dəstək olmaq.*

***www.ataf.az***

## ATAF Azerbaijan Turkey Historical Research Foundation

*Established by ATIB, ATAF Board of Trustees has currently 80 members. The Chairman of the Board of Trustees is Suleyman Demirel, 9th President of Turkey. Main goals of the initiative encompass the following:*

- *To research the history of Azerbaijan and Turkey and try to identify common issues for both countries*
- *To define possible ways for solving common issues and prepare related proposals*
- *To contribute to the peaceful and prosperous co-existence of the people in the region, to define solutions to the problems that are preventing economic integration, and to raise the economic welfare of the region.*

***www.ataf.az***

## ATAF US Azərbaycan Türkiyə Amerika Fondu

*ATAF US təşkilatının yaradılmasında məqsəd ABŞ-da yaşayan və fəaliyyət göstərən Azərbaycan və Türkiyə cəmiyyətlərinə yönəlik olaraq ortaq tariximiz və məsələlərimiz barədə maarifləndirmə işini həyata keçirməklə bərabər, ABŞ-ın dövlət orqanları, universitetləri, qeyri-hökumət təşkilatları, biznes təşkilatları və digər təbəqələri ilə əməkdaşlıq çərçivəsində ölkələrimiz haqqında onları obyektiv informasiya ilə məlumatlandırmaqdır.*

## ATAF US Azerbaijan Turkey America Foundation

*ATAF US was established with the aim of promoting Azeri and Turkish communities in the United States about our common history and issues, and to strengthen activities towards bringing the realities of Azerbaijan and Turkey to the international community within the framework of established cooperation with US state bodies, universities, NGOs, business organizations, etc.*

## İNİN İnnovasiya İnstitutu

*ATİB-in təşəbbüsü və təsisçiliyi ilə 2007-2009-cu illərdə Azərbaycanla Rusiya arasında humanitar sahədə dövlətlərarası əməkdaşlıq proqramına müvafiq olaraq, 30 may 2008-ci il tarixində İnnovasiya İnstitutu (İnnovasiya fəaliyyəti üçün mütəxəssislərin hazırlanma mərkəzi) ictimai birliyi yaradılmışdır. ATİB-lə yanaşı, institutun təsisçiləri sırasında Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AzProMo), Bakı İnnovasiya Texnologiyaları Mərkəzi və Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi İnnovasiya Mərkəzi də vardır. Qurumun təsis edilməsində məqsəd Azərbaycanda təhsilin keyfiyyətinin yüksəldilməsinə dəstək verilməsi yolu onun digər ölkələrlə, o cümlədən Türkiyə və Rusiya ilə innovasiya sahəsində əməkdaşlığının inkişaf etdirilməsi və onun bazasında texnoparkın yaradılmasından ibarətdir. İnnovasiya İnstitutu bu məqsədlə Müasir Humanitar Akademiya (Rusiya), Qlobal Açıq Universitet (ABŞ), Anadolu Universiteti (Türkiyə) və digər qurumlarla əməkdaşlıq edir.* ***www.open.edu.az***

## ININ Innovation Institute

*Innovation Institute Public Union was initiated and founded by ATIB (the Center on preparing specialists for innovative activity) under the program of inter-governmental cooperation in the humanitarian sphere between Azerbaijan and Russia for 2007-2009 on May 30, 2008.*

*Besides ATIB, Azerbaijan Export and Investment Promotion Foundation (AZPROMO), Baku Innovation Technologies, and Innovation Institute under the Economic Development Ministry of Russian Federation are among the founders. The purpose of the Institute is to contribute to improving the quality of education in Azerbaijan, thus to enhance its cooperation in the field of innovations with other countries including Turkey and Russia, and to create on the basis of that an industrial park.*

*For this purpose Innovation Institute cooperates with Modern Humanities Academy (Russia), Global Open University (USA), Anadolu University (Turkey) and other organizations.*

***www.open.edu.az***

ATİB
AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ
AZERBAIJAN TURKEY BUSINESS ASSOCIATION

## *ATİB-in Layihələri*

BİS
BAĞLAR İLİŞKİLƏR SİNERJİ
TIES RELATIONS SYNERGY

*BİS Bağlar Əlaqələr Sinerji*

*ATİB-in ilk layihəsi olan BİS (Bağlar, İlişkilər, Sinerji) Konsepsiyasının hazırlanmasında və həyata keçirilməsində məqsəd Azərbaycanla Türkiyə arasındakı əlaqələrin hərtərəfli şəkildə daha da genişləndirilməsinə dəstək verməklə yanaşı, ölkələrimizin üçüncü ölkələrdə bir yerdə düzgün şəkildə tanıdılmasına nail olmaqdan ibarətdir. ATİB hesab edir ki, Azərbaycanla Türkiyə arasındakı əlaqələr kompleks şəkildə gücləndirilərək, sinerji yaradılmalı və bu sinerji ölkələrimizin öz aralarında mövcud olan münasibətlərlə yanaşı, digər ölkələrlə münasibətlərin də inkişafına töhfə verməlidir.*

TAR
TÜRKİYƏ AZƏRBAYCAN RUSİYA
TURKEY AZERBAIJAN RUSSIA

*TAR Türkiyə-Azərbaycan-Rusiya*

*Azərbaycan Türkiyə İş Adamları Birliyi Türkiyə və Rusiyanın hər iksinə qonşu olan və hər iki ölkə ilə siyasi, iqtisadi, sosial, və mədəni sahələrdə geniş əlaqələrə malik olan Azərbaycanda birgə layihə həyata keçirə biləcəyini düşünərək, Türkiyə-Azərbaycan-Rusiya əlaqələri (TAR) haqqında Konsepsiyasını irəli sürmüşdür. Konsepsiya Türkiyə, Azərbaycan və Rusiya arasında hərtərəfli əlaqələrin inkişaf etdirilməsinə xidmət edir. O, həmçinin, Türkiyə və Rusiyadan informasiya texnologiyalarının transferi yolu ilə Azərbaycanda iqtisadi dəyəri olan böyük layihələrin həyata keçirilməsini nəzərdə tutur. Türkiyənin Avropa İttifaqına girmək üçün sərf etdiyi intensiv cəhdlər və bu cəhdlər nəticəsində əldə etdiyi təcrübələrdən istifadə edərək, Türkiyənin və Rusiyanın təşəbbüsü, Azərbaycanın fəal iştirakı ilə yeni bir regional əməkdaşlığın formalaşdırılması qarşıya məqsəd qoyulur.*

ATUS
AZƏRBAYCAN TÜRKİYƏ USA
AZERBAIJAN TURKEY USA

*ATUS Azərbaycan-Türkiyə-ABŞ*

*ATİB-in ilk növbədə Türkiyə ilə Azərbaycan, sonra isə Türkiyə, Azərbaycan və digər ölkələr arasında əlaqələrin daha da inkişaf etdirilməsi missiyasının təzahürü olaraq, 2006-cı ildə "Azərbaycan-Türkiyə-ABŞ Əlaqələri" – ATUS Konsepsiyasını işləyib-hazırlamışdır. Bu Konsepsiya Avrasiya regionu üçün mühüm əhəmiyyət kəsb edən iqtisadi əlaqələri gücləndirməyi və biznes sahəsində*

## *ATIB's Projects*

BİS
BAĞLAR İLİŞKİLƏR SİNERJİ
TIES RELATIONS SYNERGY

*BIS Ties Relations Synergy*

*The main goal of creating the concept and further carrying out BIS (Ties, Relations, Synergy), the first project of ATIB, was both to support developing cooperation between Azerbaijan and Turkey in all possible spheres and help to better introduce our countries to communities of other countries. ATIB strongly believes that by comprehensive enhancement of Azerbaijani-Turkish relations the synergy should be achieved which could be used as effective tool in developing relations between not only our countries, but also with other countries.*

TAR
TÜRKİYƏ AZƏRBAYCAN RUSİYA
TURKEY AZERBAIJAN RUSSIA

*TAR Turkey-Azerbaijan-Russia*

*Taking into consideration the proximity of Azerbaijan to Russia and Turkey from the standpoint of economic, political and socio-cultural relations, Azerbaijan Turkey Business Association put forward Turkey-Azerbaijan-Russia Concept (TAR) for the realization of future joint projects. The concept is aimed at serving development of multi-lateral relations between Turkey, Azerbaijan and Russia. The concept also assumes implementation of large scaled projects that would hugely influence the economy by transferring Information and Communications Technology from Russia and Turkey to Azerbaijan.*

*By collaboration of huge efforts spent by Turkey to become a member of the European Union, and Turkey's experience obtained in the result of these efforts, the aim is to build a new regional cooperation platform initiated by Turkey and Russia and with an active participation of Azerbaijan.*

ATUS
AZƏRBAYCAN TÜRKİYƏ USA
AZERBAIJAN TURKEY USA

*ATUS Azerbaijan-Turkey-US*

*As a reflection of ATIB mission to further develop relationship between first of all Turkey and Azerbaijan, then among Turkey, Azerbaijan and other countries, the Azerbaijan - Turkey-Us Relationship Concept (ATUS) was prepared in 2006. The Concept is aimed at fostering business cooperation and strengthening economic ties that are so much important for Eurasian region. The Concept is focused on*

tərəfdaşlığı inkişaf etdirməyi nəzərdə tutur. Konsepsiya strateji əhəmiyyətə malik Avrasiya regionunda hər bir ölkənin məqsədlərini və onların bu məqsədlərə çatmaq üçün birgə fəaliyyət istiqamətlərini müəyyən etməyə çalışır. Bununla əlaqədar meydana çıxan məsələlər ATUS konsepsiyası çərçivəsində müntəzəm olaraq təşkil olunan beynəlxalq elmi-praktik konfranslarda müzakirəyə çıxarılır. Konfranslar bu ölkələrin hər birində növbə ilə keçirilir.

identifying the goals of each country in the Eurasian region that bears great strategic importance and on finding the ways of joint cooperation to achieve these goals. All the related issues that appear from to time pertaining to this matter are brought up for discussions at theoretical and practical international conferences which are continuously held within the ATUS Concept. The conferences are held in each country on a rotating basis.

## ATİF Azərbaycanda Təhsilin İnkişafı Fondu

ATİB Azərbaycan iqtisadiyyatının inkişafının insan resurslarının inkişafı ilə birbaşa bağlı olduğuna inanır və bu baxımdan insan resurslarının inkişaf etdirilməsini Azərbaycan cəmiyyətinin, o cümlədən iş adamlarının qarşısında duran əsas vəzifələrdən biri hesab edir. Bu vəzifədən çıxış edərək ATİB tərəfindən hazırda həyata keçirilmə mərhələsində olan ATİF layihəsi insanların ümumi mənafeyinə xidmət edəcək və insan resurslarının inkişafına yönələn iri miqyaslı layihələrin maliyyələşdirilməsi, o cümlədən Təhsil TV layihəsinin həyata keçirilməsi, Azərbaycanda elmi tədqiqatların aparılmasına yardım edilməsi və gənc tədqiqatçıların (alimlərin) təcrübəsinin artırılması istiqamətində işlərin görülməsi ilə məşğul olacaq və özündə cəmiyyətin bu məsələlərdə maraqlı olan bütün təbəqələrini birləşdirən qeyri-hökumət təşkilatının yaradılmasını nəzərdə tutur.

## ATIF Azerbaijan Education Development Foundation

ATIB believes that the economical development of Azerbaijan is directly correlated with its human resource development; therefore developing human resources must be the number one priority goal of businessmen and of the whole Azerbaijani community in general. From this standpoint, the ATIF project which is currently undergoing the implementation stage by ATIB, will serve to benefit the people in general and will closely deal with financing wide spectrum projects directed at developing human resources, including realization of Educational TV project, enabling support to conducting scientific research and enrichment of experience of young researchers (scientists). It is also planned to establish within the framework of this project an NGO that will unite and coordinate all related interested parties.

## ABİF Azərbaycan Beynəlxalq İş Adamları Federasiyası

ATİB-in təşəbbüscüsü olduğu Azərbaycan Beynəlxalq İş Adamları Federasiyasının yaradılması ilə əlaqədar ilk addım 28 Oktyabr 2005-ci il tarixdə ATİB ofisində Azərbaycan Respublikasında fəaliyyət göstərən yerli və xarici iş adamları birlikləri və assosiasiyalarının (biznes qurumların) Koordinasiya Şurası adı altında birləşməsi ilə bağlı keçirilən görüşdə atılmışdır. Koordinasiya Şurasının yaradılmasının əsas məqsədi Azərbaycanda biznes şəraitinin yaxşılaşdırılması, sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi, dövlət başçısı və hökumətə iqtisadi siyasət ilə bağlı müvafiq təkliflərin təqdim edilməsi və s. ibarətdir. Ötən müddət ərzində bir sıra təşkilatlar ABİF-in təsisçiliyində iştirak ilə bağlı müsbət rəylərini bildirmişlər.

## ABIF Azerbaijan International Business Federation

The initial step of establishing Azerbaijan International Business Federation, initiated by ATIB, was made on 28 May 2005 in ATIB office, where local and foreign businessmen and associations (business organizations) operating in Azerbaijan gathered for the first time under the Coordination Committee and held a meeting.

The main goal of creating the Coordination Committee is to improve the business environment in Azerbaijan, to boost entrepreneur activities, and to submit proposals related with fostering national economy to the President and the Government of Azerbaijan. Lately, a number of organizations have declared their positive attitude regarding being a co-founder of ABIF.

Ünvan: İstiqlaliyyət küç.,
21, 5-ci mərtəbə, AZ1001,
Bakı, Azərbaycan

Tel: (+99412) 449 88 82, 449 88 83
Faks: (+99412) 449 88 84
E-mail: office@atib.az
www.atib.az

Address: 21, Istiglaliyyet Str.,
5th floor, AZ1001,
Baku, Azerbaijan

Tel: (+99412) 449 88 82, 449 88 83
Fax: (+99412) 449 88 84
E-mail: office@atib.az
www.atib.az